**“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, 1, maddə 1, 3, maddə 131; 2002, 12, maddə 693; 2003, 1, maddə 16; 2004, 1, maddə 10, 4, maddə 199, 5, maddə 321, 8, maddə 597, 11, maddə 884; 2005, 6, maddələr 463, 475, 10, maddə 874; 2006, 5, maddə 386, 6, maddə 479, 8, maddə 657, 11, maddə 927, 12, maddələr 1005, 1014; 2007, 2, maddə 83, 5, maddələr 434, 436, 7, maddə 711, 10, maddə 934, 11, maddələr 1049, 1074, 1078, 12, maddələr 1213, 1219; 2008, 3, maddə 153, 5, maddələr 326, 341, 6, maddələr 471, 481, 7, maddə 602, 8, maddə 699, 10, maddə 881; 2009, 2, maddə 54, 5, maddə 311, 6, maddə 403, 10, maddə 771, 11, maddə 878, 12, maddə 964; 2010, 4, maddə 276; 2011, 2, maddə 71, 3, maddə 165, 6, maddə 463; 2012, 5, maddə 413, 10, maddə 945, 11, maddə 1049; 2015, 1, maddə 9, 5, maddə 488, 10, maddə 1100; 2016, 8, maddə 1365, 11, maddələr 1760, 1782, 1785; 2017, 5, maddə 726, 6, maddə 1054, 7, maddə 1267, 8, maddə 1513, Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 824-VQD nömrəli Qanunu, Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 850-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 2.3-cü maddənin birinci hissəsinə “müddəaları” sözündən sonra “, həmçinin bu Qanunun 15-1-ci maddəsi” sözləri əlavə edilsin.

2. Aşağıdakı məzmunda 15-1-ci və 15-2-ci maddələr əlavə edilsin:

“Maddə 15-1. Dövlət qulluqçusunun şəxsi işi

15-1.1. Dövlət qulluqçusunun dövlət qulluğu keçdiyi dövr ərzində yalnız bir şəxsi işi tərtib edilir və aparılır.

15-1.2. Dövlət qulluqçusunun şəxsi işinə bu Qanunun 15-1.3-cü maddəsinə əsasən müəyyən olunan qaydalarda nəzərdə tutulmuş sənədlər və məlumatlar daxil edilir.

15-1.3. Dövlət qulluqçusunun şəxsi işinin aparılması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.

15-1.4. Dövlət qulluqçusunun şəxsi işinin aparılması ilə bağlı tələblərin pozulmasında təqsirli olan şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

Maddə 15-2. Dövlət qulluqçusunun xidməti vəsiqəsi

15-2.1. Dövlət qulluqçusuna qulluq keçdiyi dövlət orqanında xidməti vəsiqə verilir.

15-2.2. Xidməti vəsiqə dövlət qulluqçusunun tutduğu dövlət qulluğu vəzifəsini və ona verilmiş ixtisas dərəcəsini təsdiq edən rəsmi sənəddir.

15-2.3. Xidməti vəsiqənin nümunəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 dekabr 2017-ci il
968-VQD